KOMİYM

# KİÇİK SAHİBKARLIĞA DÖVLƏT KÖMƏYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*İlkin Qarayev, Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi*
*Sabit Bağırov, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu*

BAKI 2014

# Təqdimatın içindəkilər

- Sahibkarlıq fəaliyyətini tənzimləyən qanunvericiliyin qısa icmalı;
- Sahibkarlıq subyektlərinin təsnifatı;
- Kiçik sahibkarlığın inkşaf vəziyyəti;
- Nəyə görə dövlət kiçik sahibkarlığı dəstəkləməlidir?
- Kiçik sahibarlığa dövlətin dəstəyi öz təzahürünü nədə tapa bilər?
- Kiçik sahibarlığa dövlətin dəstəyi öz təzahürünü nədə tapa bilər?
- Kiçik sahibkarlığa dövlət köməyi haqqında qanunun təkmilləşdirilməsi istiqamətləri

# Azərbaycan Respublikasının Konstitusiyası

## Maddə 59. Azad sahibkarlıq hüququ

Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

# Məcəllələr

1. Mülki Məcəlləsi
2. Vergi Məcəlləsi
3. Gömrük Məcəlləsi
4. Əmək Məcəlləsi
5. Torpaq Məcəlləsi
6. Mülki Prosessual Məcəlləsi
7. Cinayət Məcəlləsi
8. İnzibati Xətalar Məcəlləsi
9. Cinayət Prosessual Məcəlləsi
10. Cəzaların İcrası Məcəlləsi
11. İnzibati Prosessual Məcəlləsi
12. Ticarət Gəmiçiliyi Məcəlləsi
13. Şəhərsalma və Tikinti Məcəlləsi
14. Miqrasiya Məcəlləsi
15. Su Məcəlləsi
16. Meşə Məcəlləsi
17. Mənzil Məcəlləsi
18. Ailə Məcəlləsi
19. Seçki Məcəlləsi

# Sahibkarlıq fəaliyyətini tənzimləyən Azərbaycan Respublikasının Qanunları

- Sahibkarlıq fəaliyyəti haqqında
- Kiçik sahibkarlığa dövlət köməyi haqqında
- Xarici investisiyanın qorunması haqqında
- Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında
- İnvestisiya fəaliyyəti haqqında
- Antiinhisar fəaliyyəti haqqında
- Haqsız rəqabət haqqında
- Təbii inhisarlar haqqında
- Əmtəə birjası haqqında
- Maliyyə-sənaye qrupları haqqında
- Reklam haqqında
- Xüsusi iqtisadi zonalar haqqında
- Daxili audit haqqında
- Bank olmayan kredit təşkilatları haqqında
- Sair qanunlar

# Vacib qeyd

Azərbaycanda yalnız kiçik sahibkarlığın rəsmi təsnifatı mövcuddur. Mikro və orta sahibkarlığın rəsmi təsnifatı yoxdur

# Azərbaycanda kiçik sahibkarlığın təsnifatı (Nəzirlər Kabinetinin Qəraına əsasən, 2009)

| Fəaliyyət sektoru | İşçilərin orta illik sayı | İllik dövriyyə |
|---|---|---|
| Sənaye və tikinti | <50 | ≤ 500 min AZN |
| Aqrar | <25 | ≤ 250 min AZN |
| Topdansatış ticarət | <15 | ≤ 1 milyon AZN |
| Pərakəndə satış, nəqliyyat, ximətlər və digər faliyyətlər | <10 | ≤ 250 min AZN |

# Avropa Birliyində mikro, kiçik və orta ölçülü sahibkarlığın təsnifatı (2003-cü ildə qəbul olunub)

| | İşçilərin sayı | İllik dövriyya | Və ya | Aktivlərin balans dəyəri |
|---|---|---|---|---|
| Orta ölçülü | < 250 | 50 milyon avro | | 43 milyon avro |
| Kiçik | < 50 | 10 milyon avro | | 10 milyon avro |
| Mikro | < 10 | 2 milyon avro | | 2 milyon avro |

# Türkiyə təsnifatı

| | İşçilərin orta illik sayı | İllik dövriyə |
|---|---|---|
| • Orta | 50 – 249 | ≤ 40 milyon TL ($24mln) |
| • Kiçik | 10 – 49 | ≤ 8 milyon TL ($4,8mln) |
| • Mikro | 1 – 9 | ≤ 1 milyon TL ($600,000) |

# Rusiya təsnifatı

| | İşçilərin orta illik sayı | İllik dövriyə |
|---|---|---|
| • Orta | <250 | ≤ 1 milyard Rubl |
| • Kiçik | <100 | ≤ 400 milyon Rubl |
| • Mikro | < 15 | ≤ 60 milyon Rubl |

# Azərbaycanda Kiçik sahibkarlıq subyektlərinin sayı (Dövlət Statistika Komitəsinə görə)

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|
| Cəmi kiçik sahibkarlıq subyektlərinin sayı | 196972 | 204960 | 205028 | 207120 | 224830 |
| Fərdi sahibkarlar | 182268 | 186491 | 186765 | 192588 | 210643 |

# Azərbaycanda Kiçik Sahibkarlıq üzrə bəzi göstəricilər (Statistika Komitəsinə görə)

2011-ci ilin sonuna, Azərbaycanda qeydiyyatda olan cəmi 224830 kiçik sahibkarlıq subyekti varidi. Bunlardan, fərdi sahibkarların sayı 210643 olmuşdur. Yaradımış Əlavə Dəyər – 1227 milyon AZN, və ya Ümumi Əlavə Dəyərin 2.6%. Kiçik sahibkarlığın məşquliyyətdə payı 6.7%. Muzdlu işçilərin sayı cəmi 90182. Kiçik müəssisələrin mənfəəti 2011-ci ildə 85328 min AZN olmuşdur. Zərərlə işləmiş kişik müəssisələrin sayı həmi ildə 1878 idi. Əsas kapitala investiaiyalar – 737561 min AZN təşkil etmişdir.

# Azərbaycanda Kiçik Sahibkarlıq sektorunun strukturu
# (Dövlət Statistika Komitəsi, 2011)



# Kiçik biznes sektorunun əsas makro-iqtisadi göstəriciləri (2011)

| | Cəmi | Bir kiçik biznesin payına düşən |
|---|---|---|
| İllik dövriyyə | 4362.2 milyon manat | 19402  manat |
| Əlavə dəyər | 1127 milyon manat | 5013 manat |
| Mənfəət | 85.3 milyon manat | 379 manat |
| İşçilərin orta illik sayl | 90.2 min | < 1 |
| Nominal monthly average salary | 222.2 manat | |
| Əsas vəsaitlərə investisiyalar | 737.6 milyon manat | 3281 manat |

# Nəyə görə dövlət kiçik sahibkarlığı dəstəkləməlidir?

Təhlillər göstərir ki, bir tərəfdən:

- Müasir ölkələrin iqtisadiyyatında kiçik sahibkarlıq aparıcı rola malikdir;
- Kiçik sahibkarlıq orta sinifin formalaşmasında əsas rol oynayır;
- Kiçik sahibkarlıq iş yerlərinin yaradılmasında ən mühüm rol oynayır;
- Dünya təcrübəsi göstərir ki, bir çox hallarda yenilikçi (innovativ) ideyalar məhz kiçik sahibkarlıq subyektlərində yaranır;

Digər tərəfdən:

- Kiçik sahibkarlıq ayrı-ayrı fərdlərin təşəbbüslərinə əsaslanır. Bunların böyük əksərriyəti sahibkarlıq fəaliyyətinə başlayaraq saysız-hesabsız problemlərlə qarşılaşırlar;

# Kiçik sahibarlığa dövlətin dəstəyi öz təzahürünü nədə tapa bilər?

1. Qanun və digər normativ aktlarda;
2. Dövlət proqramlarında:
   - Ümummilli;
   - Sahəvi;
   - Regional;
   - Sosial qruplar (qadınlar, gənclər, azlıqlar, veteranlar və s.)
3. Xüsusi institutların yaradılmasında:
   - Kiçik sahibkarlıq üzrə dövlət agentliyinin yaradılması;
   - Kiçik sahibkarlıq üzrə Ombudsmen institutunun təsis edilməsi;
   - Kredit fondlarında;
   - sair.

# Kiçik sahibarlığa dövlətin dəstəyi öz təzahürünü nədə tapa bilər?

Öncəki slaqydın davamı:

4. Güzəştli vergi rejimində;
5. Güzəştli kreditlərin və qrantların ayrılmasında;
6. Mühasibat uçotunun və hesabatlılığın  sadələşdirilməsində;
7. Dövlət alqı-satqılarında, sifarişlərində yerli kiçik sahibkarlıq subyektlrinə müəyyən üstünlüyün verilməsi və ya kvotaların ayrılmasında;
8. Xüsusi infrastrukturun yaradılmasında;
9. Kadrların hazırlanmasında;
10. Sair

# Kiçik sahibkarlığa dövlət köməyi haqqında qanuna dair dünya təcrübəsi

ABŞ: *SMALL BUSINESS ACT (Public Law 85-536)*;

Avropa İttifaqı: *“THINK SMALL FIRST”. A “SMALL BUSINESS ACT” FOR EUROPE (2008)*;

Rusiya: 1995-ci ildə *Федеральный закон о государственной поддержке малого предпринимательства в Российской Федерации* qəbul edilib. 2007-ci ildə bu qanun yensi ilə əvəzlənib: *Федеральный закон о развитии малого и среднего предпринимательства в Российской Федерации*

Qazaxstan: *1997-ci ildə analoji qanun qəbul edilib, lakin 2006-cı ildə qanun ləğv edilib. Lakin həmin ildə “Özəl sahibkarlıq haqqında” qanun qəbul edilib və bu qanunun 19-cu maddəsi kiçik sahibkarlığın inkişafı və dövlət tərəfindən dəstəklənməsinə həsr edilir. Hazırda bu ölkədə xüsusi sahibkarlıq məcəlləsi hazırlanmaqdadır;*

Ukraina: *Закон Украины "О государственной поддержке малого предпринимательства“ (2000-ci ilk dəfə qəbul edilib. 2012 yeni qanun qəbul edilib: “О развитии и государственной поддержке малого и среднего предпринимательства в Украине”);*

Belorusiya: *О государственной поддержке малого предпринимательства в Республике Беларусь (1996-cı ildə qəbul edilib, 2010-cu ildə ləğv edilib. Həmin ildə yeni qanun qəbul edilib: О поддержке малого и среднего предпринимательства);*

# Avropa İttifaqının *“KİÇİK BİZNES AKTI”*

Simvolik olaraq AKT adlanan bu 21 səhifəlik sənəd kiçik sahibkarlıq üzrə həm Avropa İttifaqı həm də üzv ölkələr üçün tətbiq olunmalı 10 prinsipi müəyyənləşdirir:

1. Sahibkarların və ailə müəssisələrinin çiçəklənə biləcək mühitin yaradılması;
2. Müflisləşmiş dürüst sahibkarlara ikinci şansın tezliklə təmin edilməsi;
3. Qaydaların “Əvvəl kiçik barədə düşün” prinsipinə uyğun cavab verməsi;
4. Dövlət inzibatçılığı elə qurulmalıdır ki, KOS-ların ehtiyaclarına cavab versin;
5. Dövlət siyasəti alətlərinin KOS-ların ehtiyaclarına uyğunlaşdırılması: dövlətin alqı-satqı əməliyyatlarında KOS-ların iştirakının təmin edilməsi, dövlət yardımı imkanlrından KOS-lar üçün daha yaxşı istifadə edilməsi;

# Avropa İttifaqının “*KİÇİK BİZNES AKTI*”.

*Oncəki slaydın davamı:*

6. KOS-ların maliyəyə əlçatanlığının yüngülləşdirilməsi və qanunvricilik və biznes-mühitinin kommersiya əməliyyatlarında ödəmələrin vaxtında ödənilməsi üçün əlverişliliyi;
7. Avropa İttifaqı Vahid Bazarının yaratdığı imkanlardan KOS-ların faydalanmaları üçün onlara yardım edilməsi;
8. KOS-ların bilik və bacarıqlarının artırılmasının və bütün növ innovasiyaların dəstəklənməsi;
9. Mühitlə əlaqəli problemlərin imkanlara çevriməsi üçün KOS-ların cəlb edilməsi;
10. Bazarların böyüməsindən KOS-ların faydalanmasının təşviq edilməsi və müvafiq yardımların göstərilməsi

# Kiçik sahibkarlığa dövlət köməyi haqqında qanunun təkmilləşdirilməsi istiqamətləri

1. Qanunun adı və mahiyyəti dəyişdirilməlidir: "Kiçik sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikası Qanunu;
2. İstifadə edilən anlayışlar xüsusi maddədə qeyd edilməlidir;
3. Kiçik sahibarlığın inkişafına dair qanunvericiliyin tərkibi dəqiqləşdirilməli və genişləndirilməlidir;
4. Kiçik sahibarlığın inkişafına dair dövlət siasəti məqsədləri və prinsipləri qeyd edilməlidir;
5. Kiçik sahibkarlıq subyektləri dəqiqləşdirilməlidir;
6. Kiçik sahibkarlığın statistik izlənməsinin məqsədləri, istiqamətləri, təhlili və aşkarlanması yolları və üsulları göstərilməlidir;
7. Kiçik sahibkarlığın inkişafı məsələləri ilə məşğul olan dövlət qurumları və onların səlahiyyətləri qeyd edilməlidir;
8. Kiçik sahibarlığın inkişafında bələdiyyələrin rolu və səlahiyyətləri qeyd edilməlidir;
9. Kiçik sahibarlıq üzrə dövlət – özəl sektoru dialoqunu təmin edən mərkəzi və yerli şuraların yaradılması və səlahiyyətləri qeyd edilməlidir;

# Kiçik sahibkarlığa dövlət köməyi haqqında qanunun təkmilləşdirilməsi istiqamətləri

10. Kiçik sahibkarlığa dövlət dəstəyi istiqamətləri genişləndirilməli və dəqiqləşdirilməlidir;
11. Kiçik sahikarlığın maliyyə təminatının yaxşılaşdırılması bölməsi genişləndirilməli və dəqiqləşdirilməlidir
12. Kiçik sahibkarlıq subyektlərinin dövlət sifarişlərinə cəlb edilməsi məsələləri qeyd edilməlidir;
13. Kiçik sahibkarlığa verilən güzəştlər dəqiqləşdirilməlidir;
14. Kiçik sahikarlığın vəziyyətinə dair illik hesabatların hazrlanması, təqdimatı və aşkarlanması məsələləri tənzimlənməlidir;
15. Kiçik sahibkarlığın inkişafı proqraqmları bölməsi genişləndirilməli və dəqiqləşdirilməlidir;
16. Kiçik sahibkarlıq infrastrukturunun inkişafı məsələləri genişləndirilməli və dəqiqləşdirilməlidir;
17. Kiçik sahibkarlığın tədrisi və təbliğatı məsələləri dəqiqləşdirilməlidir;
18. Normalar imperativ xarakter daşımalıdır. “edilə bilər”, “yaradıla bilər”, “göstərilə bilər” kimi ifadələrə yol veriləməlidir.

KOMİYM

# TƏŞƏKKÜRLƏR!

*İlkin Qarayev, Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi*
*Sabit Bağırov, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu*

*bagirov.sabit@gmail.com*

BAKI 2014